# YUBİLEYLƏR

## FOLKLOR KAFEDRASI – 20

## FOLKLOR KAFEDRASI 20 İL SONRA

Keçən əsrin 80-ci illərində bütün dünyada folklora qayıdış meylləri özünü göstərirdi. Ağız ədəbiyyatına maraq artmış, bu sahədə araşdırmalar genişlənmişdi. Azərbaycanın hələ Sovetlər Birliyinin tərkibində olduğu həmin dövrdə başqa respublikaların universitetlərində müstəqil folklor kafedraları fəaliyyət göstərirdi. Lakin bizdə «Şifahi ədəbiyyat» fənni Azərbaycan ədəbiyyatı tarixi kafedrasının tərkibində tədris edilirdi. Məlumdur ki, folklor və mifologiya bütün dünya ölkələrində ayrıca indekslə öyrənilir. Folklorun Azərbaycan ədəbiyyatının bir hissəsi kimi cəmi bir semestr ərzində tədrisi onun daha ardıcıl və dərindən öyrənilməsinə, cəmi bir fənn hüdudlarında deyil, bir neçə xüsusi və ixtisas kursları ilə birlikdə ehtiyac duyulurdu. 1989-cu ilin əvvəllərində universitetin professoru Azad NəbiyevFolklor kafedrası açmaq təşəbbüsünü irəli sürdü. Təklif müsbət qarşılandı. 1989-cu ilin yanvarında Bakı Dövlət Universitetinin filologiya fakültəsinin Elmi Şurası Folklor kafedrasının açılması barədə qərar qəbul etdi. Həmin ilin 24 fevral tarixində isə bu qərara uyğun olaraq universitetin rektoru professor Yəhya Məmmədov filologiya fakültəsində Folklor kafedrasının təşkil edilməsi barədə əmr verdi. Professor Azad Nəbiyev kafedra müdiri təyin edildi. Sonralar bir neçə dəfə həmin vəzifəyə seçilən Azad müəllim 20 ildir ki, kafedraya rəhbərlik edir. Kafedranın ilk tərkibində professor Vaqif Vəliyev, professor Əzizə Cəfərzadə, baş müəllim Çərkəz Quliyev, baş müəllim Nizami Xəlilov kimi müəllimlər vardı. Bu müddət ərzində kafedramızın inkişafında, yüksək ixtisaslı kadrların yetişməsində xidmətləri olmuş müəllimlərimizdən Vaqif Vəliyev, Əzizə Cəfərzadə, Çərkəz Quliyev dünyalarını dəyişmişlər.

Hazırda kafedrada 7 müəllim, 2 laborant çalışır. Bir professorumuz, 5 dosentimiz vardır. İlk tərkibdən olan dosent Nizami Xəlilov həm də fakültənin magistratura və qiyabi şöbə üzrə dekan müavinidir. Dosent Məhəmməd

Məmmədov fakültənin elmi katibidir. Onun folklor və mifologiya sahəsində maraqlı tədqiqatları vardır.

Dosent Etibar Talıblı yaxşı müəllim, yorulmaz araşdırıcı olmaqla yanaşı, həm də Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının ekspertidir.

Dosent Səhər Orucova bir neçə ildir ki, humanitar fakültələrin rus bölmələrində folklorumuzu tədris edir. O, rus bölməsi üçün «Azərbaycan şifahi xalq ədəbiyyatı» fənnindən proqramın müəllifidir.

Dosent Kəmalə İslamzadə tədris-metodiki, tədqiqat işləri ilə məşğul olmaqla yanaşı «Folklorşünaslıq məsələləri» məcmuəsinin məsul katibi və Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının ekspertidir. O həmçinin kafedranın bütün tədbirlərinin təşkilatçısıdır.

Kafedranın gənc doktorantı f.e.n. Ülkər Nəbiyeva artıq bir ildir ki, müəllimlərimizin sırasına qoşulmuşdur. O, «Kitabi-Dədə Qorqud» dastanının tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasının müdafiəsi ərəfəsindədir.

Yuxarıda adları çəkilən müəllimlərin hamısı doktorluq mövzusu üzərində çalışır.

Kafedranın baş laborantları – Lətafət Ələkbərova və Almara Vəzirqızı namizədlik dissertasiyalarını yekunlaşdırmaq üzrədirlər. Kafedra Elmi Şurada öz müəllimləri ilə təmsil olunur.

20 il ərzində kafedrada bir çox müsbət dəyişikliklər baş vermişdir. Magistratura şöbəsinin açılması ilə əlaqədar olaraq yeni fənlərin tədrisinə başlanılmış, onların proqramları tərtib olunaraq çap edilmişdir. Bu müddət ərzində kafedrada professor Azad Nəbiyevin müəllifi olduğu 2 cildlik «Azərbaycan xalq ədəbiyyatı» dərsliyi işıq üzü görmüş, onlarla dərs vəsaiti, metodik göstəriş, monoqrafiyalar nəşr edilmişdir. Kafedra üzvlərinin iştirakı ilə ərsəyə gəlmiş tərtib, tərcümə və transkripsiya işlərini də xüsusi qeyd etmək lazımdır. Kafedra üzvləri respublika və beynəlxalq statuslu konfranslarda müntəzəm olaraq maraqlı məruzələrlə çıxış edirlər. Onların hər biri folklorumuzun müxtəlif aktual problemləri üzərində tədqiqatlar aparır. Əllidən artıq dəyərli kitabın, 300-dən çox elmi-publisistik məqalənin müəllifi olan kafedranın müdiri professor Azad Nəbiyev çoxsaylı kitablarına, məqalələrinə, elm və tədris sahəsindəki xidmətlərinə görə AMEA-nın müxbir üzvü seçilmiş, Respublikanın Əməkdar müəllimi adına layiq görülmüşdür. Professor Əzizə Cəfərzadə Xalq Yazıçısı fəxri adı almışdır. Kafedra üzvlərinin (A.Nəbiyev,

Ə.Cəfərzadə, N.Xəlilov) rəhbərliyi altında 19 namizədlik dissertasiyası müdafiə edilmişdir. AMEA-nın müxbir üzvü A.Nəbiyev 3 doktorluq işinə məsləhətçi olmuşdur. İndi kafedranın yetirmələri respublikanın müxtəlif elm və təhsil ocaqlarında fəaliyyət göstərirlər. Bundan başqa, 100-dən artıq namizədlik və doktorluq dissertasiyaları müzakirə üçün kafedraya göndərilmiş və onlara əlavə rəy verilmişdir.

Üzvlərinin sayına görə kiçik olmasına baxmayaraq, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası bütün respublikada folklorun tədqiqinin və tədrisinin əsas mərkəzlərindən biri hesab olunur. Folklor ekspedisiyaları təşkil olunur və onların nəticələrindən araşdırmalar zamanı istifadə edilir. Müxtəlif televiziya kanallarında, radio dalğalarında kafedra üzvlərinin çıxışları artıq bir ənənə halını almışdır. Kafedrada uzun illər aparılan eksperimentlərin nəticəsi olaraq AMEA-nın müxbir üzvü A.Nəbiyev tərəfindən dünya folklor nəzəriyyələri ilə yanaşı addımlaya bilən yeni Geneoloji nəzəriyyəsinin əsas müddəaları işlənib hazırlanmışdır. Kafedranın nəşri olan «Folklorşünaslıq məsələləri» məcmuəsi Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmişdir.

2004-cü ildə filologiya filologiya fakültəsinin rəhbərliyinin təklifi ilə kafedranın adı əsassız olaraq dəyişdirilərək «Azərbaycan şifahi xalq ədəbiyyatı» adlandırılmışdır.

Biz inanırıq ki, universitetin 90 illik yubileyi ərəfəsində bu ədalətsizlik aradan qaldırılıcıq və kafedranın həqiqi adı bərpa olunacaqdır.

Bu gün arxaya baxarkən necə mürəkkəb, şərəfli inkişaf yolu keçdiyimizdən qürur duyuruq. Kafedranın 20 illik yubileyi günlərində onun yaradılmasına köməklik göstərmiş, xeyir-dua vermiş şəxsləri minnətdarlıqla xatırlayırıq: Yəhya Məmmədov, Teymur Vəliyev, Arif Babayevi, Əlövsət Abdullayevi ehtiramla xatırlayır, Ağamusa Axundov, Abuzər Xələfov, Yaqub Mahmudov, Müseyib Müseyibov, , Həmid İmanov və başqalarına dərin təşəkkürümüzü bildiririk.

Kafedramızın qarşısında hələ yeni-yeni vəzifələr, fəth edilməli zirvələr durur. Arzu edirik ki. Gənclik dövrünü yaşayan 20 yaşlı kafedramızın üzvlərinin səsi dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərin tribunalarından eşidilsin, onların imzası nüfuzlu elmi nəşrlərin səhifələrindən əskik olmasın. Kafedranın yetirimələri hər yerdə onu ləyaqətlə təmsil etsinlər.